**“Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 10 mart tarixli 543-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, 5, maddə 348; 1999, 11, maddə 609; 2000, 11, maddə 776; 2001, 9, maddə 576, 12, maddələr 733, 736; 2002, 12, maddə 706; 2004, 7, maddə 505, 12, maddə 976; 2005, 1, maddə 2, 12, maddə 1082; 2006, 11, maddə 923, 12, maddə 1018; 2007, 1, maddə 4, 12, maddə 1193; 2008, 2, maddə 49, 4, maddə 254, 6, maddə 462, 7, maddə 602; 2009, 12, maddə 970; 2010, 4, maddə 276, 11, maddə 949; 2011, 10, maddə 883; 2013, 11, maddə 1284, 12, maddə 1487; 2014, 10, maddə 1171; 2016, 4, maddə 657, 6, maddə 971; 2017, 3, maddə 336, 7, maddə 1279) 6-cı maddəsinin ikinci hissəsinin ikinci cümləsində “yaşa görə əmək pensiyasının baza hissəsinin” sözləri “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun 6-1-ci maddəsinə uyğun olaraq əmək pensiyasının minimum məbləğinin” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 mart 2018-ci il
1029-VQD